



13 dövlət başçısı, 18 beynəlxalq təşkilat rəhbəri

2017-ci ildə xarici ölkə və qurumların rəsmilərinin Azərbaycana səfərləri intensiv hal aldı

2017-ci il Azərbaycan diplomatiyası üçün mühüm uğurlarla yadda qaldı. Ötən il ərzində 14 ölkəyə səfər edən Prezident İlham Əliyevin keçirdiyi görüşlər, apardığı danışıqlar Azərbaycanın beynəlxalq nüfuzunun mühüm təsdiqi oldu. Keçən il həm də ayrı-ayrı ölkələrin rəhbərləri ölkəmizə səfərlər etdilər. Bu səfərlərin hər biri ikitərəfli əlaqələrin inkişafına təkan verməklə yanaşı, həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yüksək mövqeyinin əsas göstəricilərindən biri kimi tarixə düşdü.

V Qlobal Bakı Forumunun iştirakçıları arasında dövlət başçıları da var idi

Azərbaycanın mehriban qonşuluq və strateji əməkdaşlıq münasibətlərində olduğu ölkələrdən biri Gürcüstandır. Ölkəmiz bu siyasətdən irəli gələrək Gürcüstana daim dayaq olub, ən çətin zamanlarında yardımlarını əsirgəməyib. 2017-ci ildə Azərbaycana ilk səfər edən dövlət başçılarından olan Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvilinin ötən il martın 16-da Bakıda Prezident İlham Əliyevlə görüşü, apardığı danışıqlar, ölkəmizlə əlaqələrə böyük önəm vermələrini bəyan etməsi iki ölkə arasında münasibətlərin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyindən xəbər verdi.

Giorgi Marqvelaşvili V Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana gəlmişdi. Cənab İlham Əliyev bu səfərin əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını bildirib. Prezident İlham Əliyev iki ölkə arasında yaxın qarşılıqlı fəaliyyətin mövcudluğunu vurğulayaraq münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib. Dövlət başçısı münasibətlərin bundan sonra da möhkəmləndirilməsi üçün səyləri əsirgəməməyin vacibliyini vurğulayıb, ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin digər sahələrdə də əməkdaşlığın gücləndirilməsi işinə xidmət etdiyini bildirib.

Ənənəvi olaraq hər il Qlobal Bakı Forumunda iştirak etdiyini vurğulayan Giorgi Marqvelaşvili forumun mühüm əhəmiyyət daşıdığını deyib. Qeyd edib ki, bu tədbirlə bağlı Azərbaycana səfəri həm dövlətimizin başçısı ilə görüşmək imkanı yaradır, həm də həmkarları ilə müzakirələr aparmaq baxımından önəmlidir.

V Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana səfər edən dövlət başçılarından biri də Latviya Prezidenti Raymonds Veyonisdir. Onunla görüşdə Prezident İlham Əliyev Latviya Prezidentinin Bakı Forumunda iştirakından məmnunluğunu bildirib və bu tədbirin artıq bir ənənəyə çevrildiyini vurğulayıb. Azərbaycanın bu tədbiri yüksək səviyyədə təşkil etdiyini vurğulayan Raymonds Veyonis Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqanın Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olmasından qürur hissi keçirdiyini deyib.

Azərbaycanla Latviya arasında müxtəlif sahələrdə əlaqələrə toxunan Raymonds Veyonis təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində işlərin görüldüyünü bildirdi və azərbaycanlı tələbələrin Latviya universitetlərində təhsil almaları üçün müvafiq tədbirlərin həyata keçirildiyini də qeyd etdi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar ətrafında fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

Albaniya Prezidenti Buyar Nişani də V Qlobal Bakı Forumunda iştirak edib. Cənab İlham Əliyevlə görüş zamanı Buyar Nişani V Qlobal Bakı Forumuna dəvətə görə minnətdarlığını bildirərək Azərbaycan Prezidenti ilə görüşdən məmnunluq hissi keçirdiyini deyib. Albaniya Prezidenti cənab İlham Əliyevlə görüşünün münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün xüsusi əhəmiyyətini qeyd edib.

Forumun müzakirələrin aparılması baxımından vacib beynəlxalq tədbir olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanla Albaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və yaxşı perspektivləri olduğunu bildirib. İki ölkənin enerji sektorunda yaxşı tərəfdaşlar olduğunu qeyd edən Prezident İlham Əliyev Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin üçüncü toplantısında albaniyalı nazirin iştirakının önəmini vurğulayıb.

V Qlobal Bakı Forumunda iştirak edən digər dövlət başçısı Makedoniya Prezidenti Georgi İvanovdur. Onunla görüşü zamanı Prezident İlham Əliyev Makedoniya Prezidentinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını qeyd edib. Prezident İlham Əliyev Qlobal Bakı Forumunun artıq çox əhəmiyyətli tədbirə çevrildiyini və burada dünyada gedən siyasi proseslərin müzakirə edildiyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla Makedoniya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu bildirərək ölkələrimizin iqtisadi, o cümlədən idxal-ixrac və sərmayə imkanlarının araşdırılmasının vacibliyini qeyd edib.

Monteneqro Prezidenti Filip Vuyanoviç indiyədək bir neçə dəfə ölkəmizdə səfərdə olub. Ötən ilin martında isə Filip Vuyanoviç V Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə gəlmişdi. Onunla görüşən Prezident İlham Əliyev görüşün, eyni zamanda ikitərəfli münasibətlərimiz ətrafında fikir mübadiləsinin aparılması üçün yaxşı fürsət olduğunu bildirib. Dövlət başçısı Azərbaycan ilə Monteneqro arasında əlaqələrin çox uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın razılıq doğurduğunu da qeyd edib.

V Qlobal Bakı Forumuna dəvətə görə minnətdarlığını bildirən Prezident Filip Vuyanoviç Prezident İlham Əliyevlə görüşündən məmnunluğunu bildirib. O, Prezident İlham Əliyevin daxili və regional vəziyyətlə bağlı səsləndirdiyi fikirlərin əhəmiyyətini vurğulayıb. İkitərəfli əlaqələrimizin səviyyəsindən razılığını ifadə edən Filip Vuyanoviç Prezident İlham Əliyevin Azərbaycan-Monteneqro əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirib, verdiyi dəstəyin vacibliyini qeyd edib.

Azərbaycana səfər edən dövlət rəhbərlərindən biri də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniçdir. Ötən il martın 17-də onun Prezident İlham Əliyevlə görüşündə ikitərəfli münasibətlərin səviyyəsinin razılıq doğurduğu bildirildi, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd edildi. Azərbaycanla Bosniya və Herseqovina arasında turizm, səhiyyə, qarşılıqlı ticarət və digər sahələrdə əməkdaşlıq imkanları ilə bağlı məsələlər müzakirə olundu.

Əlaqələrin inkişafına təkan verən rəsmi səfərlər

Azərbaycanın ortaq dəyərləri bölüşdüyü ölkələrdən biri Qazaxıstandır. Hazırda iki ölkə arasında bütün sahələri əhatə edən sıx münasibətlər mövcuddur. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ötən ilin aprelində Azərbaycana etdiyi rəsmi səfər ikitərəfli əlaqələrdə yeni səhifə açdı. Nursultan Nazarbayevlə görüşdə Prezident İlham Əliyev bu səfərin ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərin möhkəmlənməsinə xidmət edəcəyini bildirib.

Səfər zamanı prezidentlərin birgə bəyannaməsi, logistika və dəmir yolu nəqliyyat maşınqayırması sahəsində strateji əməkdaşlıq haqqında saziş, ikiqat vergitutma sahəsində sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında protokol, beynəlxalq avtomobil əlaqələri haqqında saziş, xarici işlər nazirlikləri arasında 2017-2018-ci illər üzrə Əməkdaşlıq proqramı, bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

May ayında Mali Prezidenti İbrahim Boubakar Keita IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün Azərbaycana səfər edib. Mayın 5-də Prezident İlham Əliyev İbrahim Boubakar Keita ilə görüşüb. Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi xüsusi vurğulanıb. Ölkələr arasında siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilib, iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi qeyd olunub.

Mali Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər sürətli inkişaf yolu keçərək dünyada böyük nüfuz qazandığını diqqətə çatdırıb. Azərbaycanın sürətli inkişafından məmnunluğunu ifadə edən Mali Prezidenti Bakının dünyada mədəniyyətlərarası dialoq mərkəzinə çevrildiyini deyib.

Son illər Azərbaycanla əlaqələri daha da inkişaf edən ölkələrdən biri Moldovadır. Moldova Prezidenti İqor Dodon iyunun 22-də Azərbaycana rəsmi səfər edib. Onunla görüş zamanı Prezident İlham Əliyev ikitərəfli münasibətlərin mühüm məsələlərinin müzakirə ediləcəyini, bir çox sahələr üzrə fikir mübadiləsi aparacaqlarını bildirib. Qeyd olunub ki, ikitərəfli münasibətlərə əhəmiyyətli dinamika vermək vacibdir ki, çox iş görmək mümkün olsun.

Avqustun 8-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycana rəsmi səfərə gəlib. Prezident İlham Əliyevlə görüşdə iki ölkə arasında əlaqələrin inkişaf səviyyəsindən razılıq ifadə olundu. Səfər zamanı Azərbaycanla Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında bəyannamə, Bakı və Türkmənbaşı limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında sazişə əlavə və dəyişikliklər edilməsi barədə protokol, vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair memorandum, turizm sahəsində əməkdaşlıq haqqında, dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında, daxili işlər nazirlikləri arasında əməkdaşlıq haqqında, baytarlıq sahəsində əməkdaşlıq haqqında, bitki karantini sahəsində əməkdaşlıq haqqında, müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında, mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında, ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair, mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişlər, energetika sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında anlaşma memorandumu imzalanıb.

Bolqarıstan Prezidenti Rumen Radev də ötən il ölkəmizə rəsmi səfər edən dövlət başçılarındandır. Onun Prezident İlham Əliyevlə görüşlərində ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, humanitar, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Bolqarıstan Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu diqqətə çatdırılıb.

Oktyabrın 31-də Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib. Bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfər edib. Prezidentlərin görüşündə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi və ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi baxımından önəmi, qlobal layihə olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının əhəmiyyəti qeyd edilib.

Səfər zamanı "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının Protokolu", ali təhsil sahəsində əməkdaşlığa və preferensial ticarət sazişinin imzalanmasına dair anlaşma memorandumları, müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında, yem bitkiləri toxumu istehsalı və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında, təhsil sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanıb.

Dekabrın 1-də Prezident İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb. Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub. Bakıda keçirilən "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində 7-ci Nazirlər Konfransının əhəmiyyəti qeyd edilib. Bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

İl ərzində Avropa Şurası baş katibinin müavini Qabriella Battaini, Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai, UNESCO-nun baş direktoru İrina Bokova, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjaon, FIFA-nın prezidenti Canni İnfantino, Ümumdünya Boks Şurasının rəhbəri Maurisio Süleyman, Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez Koçijançiç, Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiç, Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidenti Mario David, ATƏT Parlament Assambleyasının sədri Kristin Muttonen, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, "Formula-1"in sədri və icraçı direktoru Çeyz Keri, Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymi, Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe, Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud da Azərbaycana səfər ediblər.

Beləliklə, bu il ərzində Azərbaycana 13 ölkənin rəhbəri səfər edib. Qazaxıstan, Moldova, Türkmənistan, Bolqarıstan prezidentləri, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri rəsmi səfərlə, Əfqanıstan Prezidenti işgüzar səfərlə Azərbaycanda olublar. Makedoniya, Monteneqro, Albaniya, Gürcüstan, Latviya dövlət başçıları V Bakı Qlobal Forumunda, Mali Prezidenti IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, Türkiyə Prezidenti Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi və Azərbaycanla Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirak etmək məqsədilə ölkəmizə səfər ediblər. Bundan başqa, Qazaxıstan, Gürcüstan və Özbəkistanın baş nazirləri Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılış mərasimində iştirak etmək üçün Azərbaycanda səfərdə olublar. O cümlədən 18 beynəlxalq təşkilatın rəhbəri və ya rəhbərliyə daxil olan şəxslər ölkəmizə səfər edib.

Bütün bunlar onu göstərir ki, Azərbaycanın xarici siyasəti milli maraqlarımızın qlobal səviyyədə həyata keçirilməsi və qorunması, Ermənistanın hərbi işğalının nəticələrinin aradan qaldırılması, ölkəmizin beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, respublikamızın ətrafında xoşməramlı regional əməkdaşlıq mühitinin yaradılması, regionda təhlükəsizlik, sabitlik və əməkdaşlığın təşviq olunması, dünya dövlətləri ilə qarşılıqlı faydalı ikitərəfli dostluq və tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, enerji, nəqliyyat və iqtisadi diplomatiya siyasətimizin həyata keçirilməsi, beynəlxalq sülh və təhlükəsizliyə, terrorizmə qarşı mübarizəyə töhfə verilməsi, multikulturalizm, mədəniyyətlər və dinlərarası dialoqun davam etdirilməsi kimi məqsədlərə uğurla xidmət edib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"